# Uşağın sosial inkişafının əsasları

**Şəbnəm Həsənova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** shebnem.hasanova@mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof.Ş.Q. Əliyeva,
ped.ü.e.d., prof.M.İ. .İlyasov

**Açar sözlər:** sosial, inkişaf, əxlaq, şəxsiyyət, məktəb, tərbiyə
**Ключевые слова:** социальная, развития, мораль, личность, школа, воспитание
**Key words:** social, development, morals, personality, school, upbringing

Uşağın sosial-şəxsi inkişafının əsas məqsədi ətraf mühitə uyğunlaşma və onun mahiyyətinin mənimsənilməsinə can atmasıdır. Məktəbəqədər dövrdə psixofizioloji funksiyaların yeni xüsusiyyətlərə (iradilik, verballıq, vasitəlilik) malik sosiallaşdırılmış səviyyəsi inkişaf edir və mürəkkəb psixi törəmələr yaranır.

Şəxsiyyətin daxili aləminin sosial determinasiyası mürəkkəb quruluşa malikdir. Burada əsas - şəxsiyyətin psixoloji və mədəni səviyyədə formalaşan maraq və tələbatları vasitəsilə təsir edən obyektiv şəraitdir. Uşaqlar sosial təcrübəni böyüklərin köməyi ilə şəxsiyyətin sosial mühitə qarışması prosesində mənimsəyir. Müasir mərhələdə uşaqlıq — fizioloji, psixoloji, pedaqoji və mürəkkəb sosimədəni prosesdir. İnkişafın hər bir yaş mərhələsində məktəbəqədər yaşlı uşaqlarda şəxsi inkişaf problemlərini həll etməyə imkan yaradan mexanizmlər əhəmiyyət kəsb etməyə başlayır. "Şəxsiyyət" anlayışı "sosiallaşma" anlayışı ilə sıx bağlıdır. Sosisallaşma anlayışının əsasında ailə, uşaq bağçası, məktəb, qeyri-rəsmi təşkilatlar və istehsalat kollektivləri durur. Onlar insanların ümumiləşməsini əks etdirir və burada aktiv şəkildə insanın sosiallaşması prosesi gedir. İnsanın ziddiyyətli sosial cəmiyyətə cəlb edilməsi şəxsiyyətin müxtəlif sosial vəziyyətlərdə aktiv sosial istiqamətlənməsi zərurətinə gətirib çıxarır. Psixi fəallıq — fərdin ətraf aləmlə qarşılıqlı təsir zamanı ətraf reallığı dərk etmək tələbatı bu situasiyaları xarakterizə edir. Bu, fərdin öz "Mən"ini dərk etmək tələbatıdır.

Uşaq tərbiyəvi mikrososiumdan pozitiv mənəvi nümunələri, mənəvi dəyərləri götürərək və onları şüur süzgəcindən keçirərək cəmiyyətin mənəvi təcrübəsini, mənəvi mədəniyyətini mənimsəyir. Sosiallaşma — fərdin sosial təcrübəni aktiv şəkildə mənimsəməsi prosesi və bu prosesin nəticəsidir. Onun əsasında mənəvi tərbiyə və inkişaf sahəsində uşağın sosial-şəxsi inkişafı və sosial təcrübə əldə etməsi baş verir.

M.Mid və Ç.X.Kuli sosiallaşma və rolların mənimsənilməsi prosesi arasında bir analogiya keçirmişdir. Onlar sosiallaşmanın üç mərhələsini ayırd etmişlər: imitasiya — müşahidə edilən hərəkətlərin mexaniki təkrarlanması; oyun - roldan rola keçid; qrupşəkilli üzvlük - öz rolunun qrupun gözü ilə mənimsənilməsi. J.Piaje koqnitiv inkişaf konsepsiyasını uşaq şəxsiyyətinin sosiallaşmasının bir sıra ardıcıl mərhələləri kimi ifadə etmişdir: 2 yaşa qədər - sensomotor; 2 - 7 yaş arası - preoperasional; 7 - 11 yaş arası - konkret-operasion; 12 yaşdan sonra - rəsmi-operasion mərhələlər. A.V.Petrovski "sosiallaşma" terminini "fəaliyyət və ünsiyyət prosesində həyata keçirilən, fərdlərin sosial təcrübəni mənimsəməsi və aktiv şəkildə tətbiq etməsinin nəticəsi olan tarixdən irəli gələn proses" kimi izah edir. [2,64] V.V. Davıdova görə, "sosiallaşma – fərdin sosial təcrübəni, sosial münasibətlər və əlaqələr sistemini mənimsəməsi və öz təcrübəsində aktiv şəkildə tətbiq etməsi prosesidir". K.K.Platonovun fikrincə,

sosiallaşma – ictimai idrakı əks etdirən və sosial cəhətdən əhəmiyyətli olan şəxsi keyfiyyətlərin tərbiyəsi prosesində əldə edilməsidir.

Sosiallaşmanın təşəkkülünün mərhələləri :

— Ənənəvi - mikrososiumun ən yaxın ətrafı üçün xarakterik olan norma, davranış etalonları, stereotiplərin mənimsənilməsi;

— İnstitusional - cəmiyyət institutları və sosial təşkilatlarla qarşılıqlı təsir funksiyaları;

— Stilləşdirilmiş - müəyyən peşəkar yaş, sosial submədəniyyət çərçivəsində davranış;

— Şəxsiyyətlərarası - subyektiv cəhətdən əhəmiyyətli şəxslərlə qarşılıqlı təsir funksiyaları.

İ.S. Kon fərdin sosial yerini onun müəyyən sosial strukturda olan yeri kimi qiymətləndirir. Bu sosial strukturun əsasında isə fərdin sosial vəziyyəti, özünün bu vəziyyətə olan münasibətini və bundan irəli gələn vəzifələrini daxilən müəyyənləşdirməsini əks etdirən insan rolu durur. [3,44]

Sosiallaşma faktorları bunlardır:

— meqafaktorlar (planet sakinlərinin sosiallaşmasına təsir edən kosmos, planet, dünya);

— makrofaktorlar (orada yaşayan insanların sosiallaşmasına təsir edən etnos, cəmiyyət, dövlət); məskunlaşma, submədəniyyət tipinə görə ayrılan böyük sosial qruplar;

— mikrofaktorlar (ailə, yaşıdlar, ictimai, hökumət və dini təşkilatlar).

D.İ. Feldşteyt uşaaq şəxsiyyətinin sosial inkişafı konsepsiyasında qeyd etmişdir ki, şəxsiyyətin sosiallaşdırılmasının ən mühüm meyarı olaraq onun uyğunlaşma, konformizm səviyyəsi deyil, müstəqillik səviyyəsi çıxış edir. O sosiallaşmanı "Cəmiyyətin sosial məsələləri, tələbatları, sosial reallıq tərəfindən obyektiv şəkildə verilən mürəkkəb sosiallaşma - fərdiləşmə prosesi" kimi müəyyənləşdirir və qeyd edir ki, "bu proses uşaq şəxsiyyəti və psixikasının immanent özünüinkişafı prosesi kimi çıxış edir". [4,32]

Uşaq inkişafı haqqında təlimlərin təkamülü sosiumun uşaq inkişafına təsirinin dərk edilməsi yolu ilə gedir. Erkən nəzəriyyələr uşağın inkişafına "uşaq-əşya" münasibətləri sistemində baxırdı. Uşaqlıq dedikdə, insanın cəmiyyətin tamhüquqlu üzvü olmaq və böyük həyata sosiomədəni cəhətdən hazırlanmaq dövrü kimi başa düşülür. Uşağın sosial reallığa cəlb edilməsi uşaq şəxsiyyətinin ictimai və mənəvi istiqamətlənməsinin əsasını qoyur. Bu, şəxsiyyətin ilkin faktiki formalaşması, şəxsi davranış mexanizmlərinin inkişafı dövrüdür. D.B.Elkonin psixikanın koqnitiv və motivasion əsaslarının formalaşmasına istiqamətlənmiş psixi inkişaf konsepsiyasının banisidir. O, uşaq psixikasının iki əsas vektorunu: əşyalar aləmi ilə qarşılıqlı münasibətlər vektoru (əşyavi aləmin dərk edilməsi və mənimsənilməsi) və uşağın insanlar aləmi ilə qarşılıqlı təsir vektorunu öz arasında bağlamaq cəhdini nümayiş etdirmiş və hesab etmişdir ki, uşağın vektorlar çərçivəsindəki fəaliyyəti şəxsiyyətin formalaşdığı həmin vahid prosesi ifadə edir. Psixoloji məzmununa görə, vektor həmin anda uşağa xas olan fəaliyyəti əks etdirir. Lakin onun olması digər subdominant fəaliyyət növlərinin olmaması demək deyildir. Uşaqlar həyata qarşı həssas, təsir altına tez düşən, emosional cəhətdən duyğuludurlar. Uşaqlar onlarda emosional hiss və emosional münasibət yaradan əşya və obyektlərin xüsusiyyətlərini qavrayır. İnkişaf prosesində bu vahid proses ikiləşir və hər bir yaş dövründə bir vektor digəri üzərində dominantlıq təşkil edir, növbəti yaş dövrü ərzində isə onlar yerlərini dəyişir. Dominantlıq təşkil edən vektorun subdominant mövqeyə keçməsi uşağın psixi inkişafında yeni yaş mərhələsinin başlanğıcını müəyyənləşdirir. Şəxsiyyətin zahiri aləmi onun özü vasitəsilə qavranılır. Uşaq nəinki böyükləri yamsılayır, həm də onun işlərinə qatılmağa can atır; uşaqda məsuliyyət hissi yaranır. O, tədricən mənəviyyat aləminə daxil olur, mövcud dəyər və normaları mərhələlərlə mənimsəyir.

A.V. Petrovskiyə görə, inkişafın sosial vəziyyəti stabil və qeyri-stabil ola bilər.

Sosiallaşmanın aparıcı fenomenləri bunlardır: davranış stereotiplərinin, sosial normaların, ənənələrin, maraqların, dəyərlərin mənimsənilməsi. O, sosiallaşma mərhələlərini göstərmişdir:

— bu cəmiyyətdə olan qarşılıqlı təsir, fəaliyyət forma və normalarına uyğunlaşma, sosial təcrübənin mənimsənilməsi, yamsılama;

— fərdualizasiya - başqaqların arasından özünü seçmək, ictimai davranış normalarına tənqidi münasibət, maksimal personallaşdırma tələbatının təmin edilməsi, cəmiyyətdə öz yerini tapmaq istəyi; imitasiya; identifikasiya; utanc; günah hissi. B.D. Parıgin hesab edir ki, bu, sosial mühitə qoşulma, ona uyğunlaşma, müəyyən rol və funksiyaların mənimsənilməsi prosesidir ki, bu rol və funksiyaları hər bir ayrı-ayrı fərd özünün formalaşma və inkişaf tarixi boyunca özündən öncəkilərin ardınca təkrarlayır. Şəxsiyyət fərdin sosial davranış sistemi kimi çıxış edir. O, sosiallaşmanın yamsılama, fasilitasiya, inandırma, rahatçılıq kimi sosial-psixoloji mexanizmlərini əks etdirir. [4,37]

Məktəbəqədər yaşlı uşağın sosiallaşması şəxsiyyətin gələcək keyfiyyətlərini müəyyənləşdirir ki, onlar arasında mənəvi və intellektual maraqlar maddi maraqlar üzərində üstünlük təşkil edir. Maddi maraqlar motivlər sistemində dəyər kəsb edir. Franklın söylədiklərinə görə, insan müəyyən dəyərləri dərk etdikdən və həyatın mənasını həyati vacib hesab etdikdən sonra onun həyatı mənalı olur.

Sosial aktivlik — insani tələbatdır ki, insanın öz dünyagörüşü, öz dəyər istiqamətlərinə müvafiq olaraq həyatın əsaslarını davam etdirməsi və ya dəyişdirməsi ilə ifadə olunur.

Sosiumda neqativ aktivlik dedikdə, şəraiti yaradan və dəyişdirən, refleksiya mexanizminə malik, şüurlu şəkildə hərəkət edən sosial cəhətdən təhlükəli şəxslər nəzərdə tutulur. Lakin onlar asosialdır, özünə və digər insanlara görə məsuliyyət hissindən məhrumdurlar. İnsanın daxili psixofizioloji "rüşeymi" tədricən şəxsiyyətin sosial cəhətdən əhəmiyyətli keyfiyyətlərinə çevrilir.

Yenə də, mənəviyyatın, davranış mədəniyyətinin formalaşdırılması əsas olaraq qalır ki, bu da, mədəni-məntiqi komponentin, empatik qarşılıqlı təsir komponentinin öyrənilməsi və mənəviyyat anlayışının tərkibində tətbiq edilməsi və məktəbəqədər yaşlı uşağın həyat fəaliyyətinə pozitiv motivasion istiqamətlənmə hesabına mümkündür.

**Məqalənin aktuallığı.** Uşaq tərbiyəvi mikrososiumdan müxtəlif mənəvi nümunələr, dəyərləri götürərək onları şüur süzgəcindən keçirir, bununla da cəmiyyətin müəyyən təcrübəsini, mədəniyyətini mənimsəyir. Bu baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə sosiallaşma və rolların mənimsənilməsi iə bağlı bir sıra alimlərin apardığı tədqiqatların nəticələrinə istinad edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisa və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş). Təhsil Nazirliyinin 10 iyul 2012-ci il qərarı.

2. Əliyeva Ş. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı, ADPU, 2012.

3. Əliyeva Ş. Məktəbəqədər pedaqogika. Bakı, ADPU, 2013.

4. Солодянкина О.В. Социальное развитие ребенка дошкольного возраста: Методическое пособие. Издательство: "АРКТИ", 2006.

**Ш. Гасанова**

## Основы социальной развитие детей


## Резюме

В статье рассматривается вопросы касающихся к основам социальной развитии детей, а также исследуется аналогии между социализации и освоении ролей.


**S. Hasanova**

## Staves of social development of the children


## Summary

It is touched to problems connected with bases of social development in the article of the children and analogies investigation is been between appropriating of the roles with social.


**Redaksiyaya daxil olub:** 07.05.2018